Azərbaycan Respublikası

Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər– N.F.Nəsibova, Ə.M.Qarayeva

etiraz verən iddiaçı N.N.Nadirov /ünvanı - *AZ2003 Gəncə, H.Əliyev pr.151 ev. 6 (AZ)/* və

"Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin nümayəndəsi aparıcı ekspert M.M.Mircəfərovanın
iştirakları ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz ərizəsi üzrə işə baxaraq müəyyən etdi:

08.08.2017-ci il tarixdə patent almaq üçün iddia edilmiş "Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru" adlı (iddia sənədi a 2015 0096) obyektinə dair "Patent və Əmtəə Nişanları Mərkəzi" Publik Hüquqi Şəxsin ixtiraya patent verilməsindən imtina haqqında 05.05.2017 tarixli qərarına qarşı Nadirov Nazim Abbas oğlu (iddiaçı) tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində qeyd edilir ki, 24.07.2015-ci il tarixində iddiaçılar (müəlliflər) N.A.Nadirov və C.N. Nadirov tərəfindən "Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru" adlı ixtiraya dair iddia sənədi Sənaye mülkiyyəti obyektlərinin ekspertizası mərkəzinə (Azpatent) təqdim edilmişdir ( iddia sənədinin nömrəsi **a 2015 0096)**. Bir neçə sorğudan sonra 07.01.2016-cı il tarixdə ilkin ekspertizanın müsbət nəticəsi haqqında qərar qəbul edilmişdir. Lakin ixtirada göstərilən qurğunun xarici jurnalda dərc etdirdiyimiz qurğu ilə eyni olması əsas tutularaq 05.05.2017-ci il tarixdə ixtiraya patent verilməsindən imtina qərarı qəbul edilmişdir. 05.05.2017-ci il tarixdə qəbul edilən imtina qərarı iddiaçılara 16.07.2017-ci il tarixində, yəni 2 ay 11 gündən sonra çatdırılmışdır.

Bununla əlaqədar iddiaçı aşağıdakıları bildirir:

1.İddia sənədindəki qurğunun 2013-cü il tarixində dərc edilmiş jurnaldakı qurğudan öz konstruktiv yeniliyi ilə fərqlənməsi və texnoloji prosesin yerinə yetirilməsinin məhz yeni qurğuda təmin edilməsi ixtiranın təsvirindən aydın olunur.

*(Qurğu üfürmə ventilyatorundan 1, rezin materialdan olan kürə şəkilli kollektordan 2, ventilyatordan üfürülən isinməmiş hava kütləsini kollektora ötürmək üçün nəzərdə tutulmuş giriş 3 və isinmiş havanı kollektordan quruducuya ötürən çıxış borularından 4 ibarətdir. Giriş borusu 3 xarici (üst) səthdən, çıxış borusu 4 isə daxili (iç) səthdən uyğun olaraq elastik əks klapanlar 5, 6 ilə təchiz edilmişdir. İstifadə olunmayan müddətdə havanın kollektordan boşaldılması üçün kran 7 və küləkli havada kollektorun dayanıqlığını təmin etmək üçün iki ədəd metal halqalar 8 nəzərdə tutulmuşdur;*

2. Jurnalda dərc edilən qurğunun surətinin ekspertlərə verilməsinə baxmayaraq 04.09.2015 və 02.11.2015-ci il tarixli ilkin ekspertiza sorğuları göndərilmiş və 07.01.2016 il tarixdən ilkin ekspertizanın müsbət nəticəsi haqqında qərar qəbul edilmişdir.

Sonradan, 05.05.2017-ci il tarixdə ixtiraya patent veriləməsindən imtina qərarı verilmişdir;

3. İddiaçı hesab edir ki, Ekspertin imtina qərarı tam əsassızdır.

Qeyd edilənləri nəzərə alaraq Apellyasiya şurasından xahiş edir ki, ixtiraya dair işə baxaraq müvafiq qərar qəbul edilsin.

Apellyasiya şurasının iclasında "Patent və Əmtəə Nişanları Mərkəzi" Publik Hüquqi Şəxsin nümayəndəsi aparıcı ekspert M.M.Mircəfərova çıxış edərək qeyd etdi ki, ekspertizaya təqdim edilən ixtiraya dair axtarış (27.03.2017 tarixli) aparılmışdır. Axtarışın nəticəsinə əsasən, təqdim olunan a 2015 0096 saylı iddia sənədi "ixtiraçılıq səviyyəsi" meyarına uyğun gəlmədiyi aşkar edilmişdi. İddiaçı ilə görüş zamanı, ona bu haqqda şifahi şəkildə məlumat verimişdir. İddiaçı ixtiranın sübütü kimi "3rd International 100% Renewable Energy Conference (IRENEC 2013) Proceedings 27-29 June 2013 "Solar Drying of Agricultural Products" page 177-183", Turkiyədə çap olunmuş maqaləsini ekspertizaya təqdim edmişdir. Həmin məqalədə iddia olunan ixtiranın mühafizə həcmi, daxil olma tarıxindən (27.07.2015) daha əvvəl dərc olunduğu (27-29 June 2013) səbəbindən, iddiaçıya bildirilmişdir ki, dərc olunmuş mənbəyə əsasən, a 2015 0096 saylı iddia sənədi üzrə texniki həll "yenilik" meyarına uyğun gəlmir. Bu səbəbdən, iddiaçı, "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin Baş direktoru v.i.e. G.A. Sevdimalıyeva xanıma müraciət (may 2017 il ) etmişdir. İddiaçının, Fizika və Mexanika şöbəsinin müdiri N. Əliyeva xanım və aparıcı ekspert M.Mircəfərovanın iştirak etdiyi görüşdə, iddiaçıya, ixtira materiallarında (ixtiranın təsvirində) olan, lakin ixtira düsturunun mühafizə həcmində göstərilməyən "küləkli havada kürənin dayanıqlığını təmin edən iki ədəd metal halqanı 8"- mühüm əlaməti düstura əlavə etməklə təqdim edilən ixtiranı, faydalı modelə çevirilməsi tövsiyə edilmişdir. Lakin iddiaçı bununla razı olmadığını, həmin sənədin ixtira kimi saxlanmasını bildirmişdir. İddiaçının şifahi rəyini nəzərə alıb, ixtira düsturunda ixtiranın mühüm əlamətlər məcmusunun: «Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru üfürmə ventilyatorundan, günəş radiasiyasını qəbul edən və avtomatik olaraq yığıla bilən təbəqədən ibarət olub onunla fərqlənir ki, **bu təbəqə rezin materialdan olan üfürülmüş kürə şəkilli hazırlanaraq havanın girişi və çıxışı üçün elastik əks klapanları olan metal borular ilə təchiz edilmiş və yerdən ən azı 3 metr hündürlükdə quraşdırılmışdır**» açıqlandığı informasiya mənbəyinə ( 3rd International 100% Renewable Energy Conference (IRENEC 2013) Proceedings 27-29 June 2013 "Solar Drying of Agricultural Products" page 177-183) əsasən "Patent haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinin 5-ci və 3-cü bəndlərinə əsasən yeniliyinə xələl gətirildiyi və mövcud bilgilər məcmusunda verilən məlumatın bir hissəsini təkrarlaması ilə əlaqədər "yenilik" şərtinə uyğun olmaması haqqında qərar verilib.

Apellyasiya şurasının iclasında çıxış edərək iddiaçı N.N.Nadirov bildirdi ki, imtina qərarı verilməzdən əvvəl müvafiq bidiriş iddiaçılara göndərilməmişdir. Həmin iclasda iddiaçı çıxış edərək bildirdi ki, İxtira üçün iddia sənədi faydalı model üçün iddia sənədinə çevirilməsi ilə razıdır və müvafiq ərizə ilə Apellyasiya şurasına müraciət etmişdir. İxtira barəsində iddia sənədlərinin faydalı model barəsində iddia sənədinə çevrilməsi və ixtira

düsturunun dəyişiklik edilməsi üçün nəzərdə tutulan tariflərin ödənilməsini təsdiq edən qəbzlərin surətləri Apellyasiya şurasına iddiaçı tərəfindən təqdim edilmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, işdə iştirak edən şəxsləri dinləyib, etiraz ərizəsinin dəlillərini iş materialları ilə birgə araşdıraraq hesab edir ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, "Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru" adlı *(iddia sənədinin nömrəsi a 2015 0096, iddia sənədinin daxil olma tarixi 24.07.2015)* obyektinə dair "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin ixtiraya patent verilməsindən imtina haqqında qərar 05.05.2017 il tarixində verilmişdir. Həmin qərarda imtina üçün əsaslar kimi qeyd edilmişdir ki, İxtira düsturunda ixtiranın mühüm əlamətlər məcmusu: «**Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru üfürmə ventilyatorundan, günəş radiasiyasını qəbul edən və avtomatik olaraq yığıla bilən təbəqədən ibarət olub onunla fərqlənir ki, bu təbəqə rezin materialdan olan üfürülmüş kürə şəkilli hazırlanaraq havanın girişi və çıxışı üçün elastik əks klapanları olan metal borular ilə təchiz edilmiş və yerdən ən azı 3 metr hündürlükdə quraşdırılmışdır**» kimi ifadə olunmuşdur.

Qərarda qeyd edilmişdir ki, İxtira düsturunda göstərilən mühüm əlamətlərlə xarakterizə olunan qurğunun, yəni «**Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru**»-nun açıqlandığı informasiya mənbəyinin *(3rd International 100% Renewable Energy Conference (IRENEC 2013) Proceedings 27-29 June 2013 "Solar Drying of Agricultural Products" page 177-183)* məlum olması və mövcud bilgilər məcmusunda verilən məlumatın bir hissəsinin təkrarlanması aşkar edilmişdir.

İddiaçıya göstərilmişdir ki, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinin 5-ci bəndinə əsasən, iddia olunan ixtira barəsində iddia sənədi (a 2015 0096) müvafiq icra orqanına verildiyi günə kimi *(yəni 24.07.2015-ci il tarixinədək), 12 ay ərzində deyil, 12 aydan artıq muddətdə (yəni 27-29 iyun 2013 tarixində)* müəllif, iddiaçi tərəfindən açıqlanmış və bununla da iddia olunan ixtiranın yeniliynə xələl gətirilmişdir. Beləliklə, yuxarıda qeyd edilənlərə əsasən ekspertiza, iddia edilən texniki həllin "Patent haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinin 5-ci və 3-cü bəndlərinə əsasən yeniliyinə xələl gətirildiyi və mövcud bilgilər məcmusunda verilən məlumatın bir hissəsini təkrarlaması ilə əlaqədər "yenilik" şərtinə uyğun olmaması haqqında qərar qəbul edir və "Patent və Əmtəə Nişanları Mərkəzi" təklif olunan ixtira obyektinə hüquqi mühafizə verməkdən imtina edir.

İddiaçı Apellyasiya şurasının iclasında çıxış edərək iddia edilən ixtira obyektini faydalı modelə çevirilməsinin mümkünlüyünə baxılmasını Apellyasiya şurasından xahiş etmişdir. İddiaçı düsturunda dəyişiklik edilməsi barədə yazılı şəkildə mətni təqdim etmişdir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi «**Kənd təsərrüfatı məhsulları qurudan günəş kollektoru**»-na aid iddiaçı tərəfindən beynəlxalq konfrasda açıqlanmışdır *(3rd International 100% Renewable Energy Conference (IRENEC 2013) Proceedings 27-29 June 2013 "Solar Drying of Agricultural Products" page 177-183).* Lakin iddia sənədində əks edilən obyektinin təsviri və düsturda göstərilən mühüm əlamətlərini və beynəlxalq konfrasda yayılan məlumatları müqayisə edərək aydın olur ki, beynəlxalq konfrasda yayılan məlumatlarda iki mühüm əlamətlər göstərilməmişdir. Apellyasiya şurası hesab edir ki, iddia edilən obyektin faydalı model kimi sayılması üçün iki yeni mühüm əlamətlərin mövcud olunması kifayətdir. Hər iki mühüm əlamətlər iddia sənədində əks olunmuşdur. Belə düzəliş iddia edilən obyektin mahiyyətini dəyişdirmir.

"Patent haqqında" Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinin 9-cu bəndində göstərilmişdir ki, *"İxtira üçün iddia sənədi barəsində məlumat dərc olunana qədər iddiaçı ərizə verməklə onu faydalı model üçün iddia sənədinə (və ya əksinə) çevirə bilər. Göstərilən hallarda əvvəlki iddia sənədinin ilkinliyi saxlanır."*

“Patent haqqında” Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinin 8-ci bəndə göstərilir ki, “*Müvafiq icra hakimiyyəti orqanı (“Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxs) iddia sənədi materiallarının rəsmi bülletendə dərcinə dair qərar qəbul edənədək iddiaçı müəyyənləşdirilmiş rüsumu ödəmək şərtilə düzəlişləri və əlavələri 1 aylıq müddət keçəndən sonra da edə bilər.*

*Dəyişikliklər ekspertin təklifi ilə də edilə bilər. İddia sənədində göstərilmiş ixtira, faydalı model və sənaye nümunəsinin mahiyyətini dəyişən və iddia sənədinin əvvəlki materiallarında olmayan əlamətlərə malik əlavə materiallar iddia sənədinə baxılarkən nəzərə alınmır və iddiaçı tərəfindən müstəqil iddia sənədi kimi tərtib edilə bilər.”*

“Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin hesabına N.A.Nadirov tərəfindən iki ödəmələr aparılması barədə müvafiq qəbzlərin surətləri (28 fevral 2018 il tarixli) Apellyasiya şurasına təqdim edilmişdir. Eyni zamanda faydalı modelə çevirilməsi ilə bağlı obyektin düsturunda dəyişiklər və əlavələr edilməsinə dair məlumat və faydalı modelin düsturu Apellyasiya şurasına təqdim edilmişdir.

Apellyasiya şurası obyektin düsturu ilə tanış olaraq hesab edir ki, obyektin düsturunda dəyişiklik və düzəliş edilərək faydalı modelin düsturu aşağıdakı redaksiyada verilməlidir: **Kənd təsərrüfatı məhsulları qurudan günəş kollektoru üfürmə ventilyatorundan, günəş radiasiyasını qəbul edən və avtomatik olaraq yığıla bilən təbəqədən ibarət, təbəqə rezin materialdan olan üfürülmüş kürə şəkilli hazırlanaraq havanın girişi və çıxışı üçün elastik əks klapanları olan metal borular ilə təchiz edilmiş onunla fərqlənir ki, kürənin dayanaqlığının təmin edilməsi üçün iki metal halqalarla təchiz edilmiş və yerdən ən azı 3 metr hündürlükdə quraşdırılmışdır.** Apellyasiya şurası işi araşdıraraq hesab edir ki, qeyd edilən düsturla iddia edilən obyekt faydalı modelin tələblərinə uyğundur və “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxs tərəfindən rəsmi bülletenində dərc olunması barədə qərar qəbul edilməlidir.

Şərh edilənlərə əsasən, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinin 8-ci, 29-cu maddəsinin 9-cu bəndinin, 29-cu maddəsinin 6-cı bəndinin, 29-cu maddəsinin 3-cü bəndinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru” adlı (iddia sənədi a 2015 0096) obyektinə dair “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin ixtiraya patent verilməsindən imtina haqqında 05.05.2017 tarixli qərarına qarşı Nadirov Nazim Abbas oğlu (iddiaçı) tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və təmin edilsin.

2. “Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru” adlı (iddia sənədi a 2015 0096) obyektinə dair “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin ixtiraya patent verilməsindən imtina haqqında 05.05.2017 tarixli qərarı ləğv edilmiş sayılsın.

3. “Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru” adlı (iddia sənədi a 2015 0096) obyekti faydalı modelin tələblərinə uyğundur və onun düsturu aşağıdakı redaksiyada verilsin : **Kənd təsərrüfatı məhsullarını qurudan günəş kollektoru üfürmə ventilyatorundan, günəş radiasiyasını qəbul edən və avtomatik olaraq yığıla bilən təbəqədən ibarət, təbəqə rezin materialdan olan üfürülmüş kürə şəkilli hazırlanaraq havanın girişi və çıxışı üçün elastik əks klapanları olan metal borular ilə təchiz**

**edilmiş onunla fərqlənir ki, kürənin dayanaqlığının təmin edilməsi üçün iki metal halqalarla təchiz edilmiş və yerdən ən azı 3 metr hündürlükdə quraşdırılmışdır.**

4. "Apellyasiya şurasının qərarının alındığı tarixdən Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsi tərəfindən rəsmi bülletendə dərc olunması barədə qərar qəbul edilməsi təmin edilsin.

Apellyasiya şurasının sədri: Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

Ə.M.Qarayeva